# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/40** **5 iyul 2018-ci il**

**“Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin edilməsi barədə**

“Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanından irəli gələn və icrasında Auditorlar Palatasının öhdəliyi yaranan vəzifələrin icrasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatası sədrinin müşavirinə (N.Talıbov) tapşırılsın ki, 2018-2019-cu illər ərzində “Kiçik və orta sahibkarlıq subyektlərində auditin aparılmasına dair” metodik göstərişin hazırlanmasının təmin etsin.
2. Auditorlar Palatası sədrinin müşavirinə (N.Talıbov) tapşırılsın ki, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 6.14-cü bəndinə uyğun olaraq, sahibkarlığın inkişafı siyasətinin əlaqələndirilməsi, Kiçik və Orta Biznes evlərində sahibkarlıq subyektlərinə xidmət göstərilməsi zamanı dövlət qurumları ilə Agentlik arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə Agentlik yanında dövlət qurumlarının nümayəndələrindən ibarət daimi fəaliyyət göstərən Koordinasiya Qrupuna Auditorlar Palatasının nümayəndəsinin verilməsini təmin etsin.
3. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 9.1-ci bəndinə uyğun olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə auditor fəaliyyəti göstərilməsinə dair icazə verilərkən həmin sənədin 10 (on) gün müddətində reyestrə salınmasını təmin etsin.
4. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 9.4-cü bəndinə uyğun olaraq, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə auditor fəaliyyəti göstərilməsinə dair icazə verilərkən onlarla nəzakətli, məsuliyyətli, peşəkar

olmalarına, ünsiyyət qurmaq, izah etmək bacarıqlarına və müraciətin vaxtında icra olunmasına xüsusi diqqət yetirilsin.

5. Auditorlar Palatası sədrinin müşavirinə (N.Talıbov), Auditin hüquqi təminatı və dövlət orqanları ilə iş idarəsinə (M.Abbasov) və Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinə (E.İbrahimov) tapşırılsın ki, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 9.5-ci bəndinə uyğun olaraq, hazırladıqları mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinə təsir edəcək normativ hüquqi aktların normayaratma orqanına təqdim edilməzdən əvvəl "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46-cı maddəsinə uyğun olaraq Agentliklə razılaşdırılmasını, həmçinin qeyd olunan sahədə özlərinin qəbul etdikləri normativ hüquqi aktların Agentliklə razılaşdırılmaqla qəbul olunmasını təmin etsinlər.

6. Sədrin müşavirinə (F.Qarayev), Beynəlxalq əlaqələr şöbəsinə (T.Əmiraslanov) və İnformasiya texnologiyaları üzrə mütəxəssisə (İ.Zeynallı) tapşırılsın ki, on gün müddətində bu sərəncamın mətninin Azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

7. Sərəncamın icrasına nəzarəti özümdə saxlayıram.

**SƏDRİ** **V.NOVRUZOV**